*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 3-10*

**AYSEL RASIM QIZI ABDULLAYEVA**
**Bakı Dövlət Universiteti, doktorant**
**aysel.nemetli1995@gmail.com**

# DİLDƏ MƏKAN ANLAYIŞININ İFADƏ TEXNOLOGİYALARI

**Açar sözlər** : dil, məkan, yer ,texnologiya,zaman,diliçilik məktəbləri
**Key words:** language, space, place, technology, time, linguistics schools
**Ключевые слова**:**язык**, пространство, место, технологии, время, лингвистические школы

Məlum olduğu kimi, zaman və məkan materiyanın (varlığın) hərəkəti ilə bağlı olaraq fəlsəfənin mühüm məsələləri kimi nəzərdən keçirilir. Ancaq fəlsəfənin məqsədi zaman, məkan və hərəkət anlayışlarını, prinsip etibarilə, obyektiv zəmində öyrənməkdən ibarətdir, dildə isə bu anlayışların inikasının insanın, eləcə də ayrı-ayrı xalqların şüur, təfəkkür özünəməxsusluqlarından irəli gələn müəyyən subyektiv "çalarlar"ı mövcuddur ki, bunu hətta XVII-XVIII əsrlərin universal qrammatikaları da qeyd etmişdir (məsələn, bax: 3). Məsələn, məntiq üzrində qurulmuş "Por-Royal qrammatikası"nda əsas məqsəd "bütün dillər üçün ümumi olan və onlarda təsadüf edilən başlıca fərqləri" aşkara çıxarmaqdır. Bu əsərin müəlliflərinin fikrincə, qrammatika məntiqə əsaslanmalıdır" (4, s. 67).

Dil haqqındakı elmin tarixi göstərir ki, hər bir dövrün fəlsəfi-metodoloji baxışlarına uyğun olaraq dilçilikdə gah məzmuna, gah da formaya əsaslanan qrammatika təlimləri özünü daha çox göstərmiş, bundan irəli gələrək dilin gah məntiqi, gah da formal təsvirinə üstünlük verilmişdir.

Zaman, məkan və hərəkət anlayışlarının dildə inikası, əlbəttə, ətraf aləmin, yaxud obyektiv varlığın insan psixikasının özünəməxsus cəhətlərindən irəli gəlir. V. fon Humboltdan başlayaraq gələn ümumi qənaətlərdən biri bundan ibarətdir ki, "dil dünya biliklərini məhdudlaşdırdığına" görə orada (dildə) obyektiv aləm heç də obyektiv (güzgüdə olduğu kimi mexaniki) əksini tapmır. Neohumboltdçular daha kəskin mövqe nümayiş etdirərək deyirdilər ki, onlar "anlayışların obyektiv gerçəkliyin əks olunduğu deyil, simvolik idrakın məhsulu olduğuna inanırlar. Dil əlamətləri, simvolları ilə şərtlənən bilik, dil təfəkkürünü müəyyənləşdirir, ətrafımızdakı dünyanı fikirlərə çevirir, onları "verbalizə edir, şifahiləşdirir" (5, s. 24-25).

Zaman, məkan və hərəkət anlayışları dildə ya birbaşa, ya da dolayısı ilə qarşılıqlı əlaqədə təzahür edir.

Dildə məkan anlayışı, ilk növbədə, özünü leksik yolla göstərir ki, onun çox müxtəlif təzahürləri mövcuddur; belə ki, ad (nominasiya) kateqoriyasına daxil olmaqla ( məsələn: kənd, şəhər, aran, yaylaq, dağ, dərə, dəniz, çay, çöl, səhra, yol, ölkə, vətən, küçə, meydan və s.) yanaşı, özünün deyktik formasında – yer zərfi olaraq

da geniş yayılmışdır; məsələn: bura, ora, yuxarı, aşağı, irəli, geri, alt, üst və s. Birinci halda yer anlayışı konkret, ikinci halda isə mücərrəd şəkildə verilir.

Yer adlarının nominativ vəziyyəti onlardakı yer məzmununun qabarıq şəkildə meydana çıxmasını müəyyən mənada məhdudlaşdırmış olur. İsimlərin “kim”, “nə”, “hara” suallarından birinə cavab verdiyi barədəki ənənəvi qrammmatika müddəası da göstərir ki, buradakı “hara” sualı məhz məkan anlayışı bildirən sözlərə aiddir. Lakin məsələnin mürəkkəbliyi burasındadır ki, hər hansı halda formal məntiqlə hesablaşmalı olan ənənəvi qrammatika “hara” sualı ilə “nə” sualı arasında kəskin sərhəd qoya bilmədiyinə görə bəzən bu və ya digər sözün məkan anlayışı bildirib-bildirmədiyi, daha konkret desək, yer zərfliyi (çünki yer zərflikləri, bir qayda olaraq, məkan mənalı sözlərdir) olması mübahisə törədir.

Həmin mübahisəni həll etmək üçün sözün kontekstinin tələb edilməsi isə o deməkdir ki, bu və ya digər leksik-semantik vahid bir çox hallarda özünün məkan anlayışı bildirməsini məhz funksional olaraq büruzə verir. Yəni bəzi anlayışlar kimi məkan anlayışı da dilin leksik-semantik sistemində heç də lazımı qədər diferensial mövqeyə malik deyil. Məsələn, eyni isimlərin müxtəlif hallardakı “daxili məna”larını müqayisə edək:

1. Bütün bu qanlı hadisələr XX əsrin əvvəllərində Bakının küçələrində baş vermişdi – Rəngbərək işıqlar Bakının küçələrinə xüsusi gözəllik verirdi.

2. Göz işlədikcə uzanan çöllər onu keçmiş günlərin qürur verən xatirələrinə aparır, ürəyini iftixarla doldururdu – Neçə əsrlər bundan əvvəl bu çöllərdə onun igid babaları işğalçılara qarşı mərdliklə döyüşmüşdülər.

3.Göylərə baş çəkir Göyəzən dağı (S.Vurğun) – Vətən göylərində cövlan edən düşmən təyyarələrini hava hücumundan müdafiə qüvvələrimiz tezliklə pərən-pərən saldı və s.

Göründüyü kimi, birinci müqayisənin birinci cümləsində **küçə** sözü ikinci cümlədəki **küçə** sözündən daha çox məkan mənası verir. Kontekstual səbəbi isə ondan ibarətdir ki, birinci halda konkret tarixi zaman cümlədəki məkan anlayışını gücləndirir, yerlik hal yönlük hala nisbətən məkan effektini daha kəskin ifadə edir. İkinci müqayisədə **çöl** sözü birinci cümlədə, əvvəla, adlıq haldadır, bu isə o deməkdir ki, ikinci cümlədəki yerlik halla müqayisədə onun məkanlılıq mənası zəifdir, eyni zamanda hər nə qədər qeyri- konkret olsa da (“neçə əsrlər bundan əvvəl”) zaman anlayışı **çöl** sözünün ikinci cümlədəki məkan məzmununu zənginləşdirir. Üçüncü müqayisədə isə şairin misrasında **göy** sözünün məkan mənası o qədər də diqqəti cəlb etmədiyi halda (həmin anlayış burada obrazlı və ya simvolikdir), ikinci cümlədə bu məna kifayət qədər qabarıq əks olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, hər iki halda **göylər** məkani- qrammatik haldadır, birincidə yönlük, ikincidə yerlik – müqayisə isə göstərir ki, yönlük hala nisbətən yerlik hal daha çox məkanidir.

F.de Sössürdən başlayaraq bir sıra struktur dilçilik məktəblərinin, eləcə də N.Xomski başda olmaqla transformasion dilçilik nümayəndələrinin ənənəvi qrammatikanı, ilk növbədə, morfologiyaya üstünlük verməkdə günahlandırması özünü doğruldur. Məsələn, "Ümumi dilçilik kursu"nun müəllifi yazır:

"...Biz görürük ki, funksiya baxımından leksik faktlar sintaktik faktlarla uyğun gələ bilər. Başqa tərəfdən, sadə üzvlənməyən hər cür söz cümlə üzvündən, yəni sintaktik faktdan əhəmiyyətli şəkildə heç nə ilə fərqlənmir.

...Qrammatikanın ənənəvi bölgüsünün praktik faydalılığını inkar etmədən, hər halda belə bir nəticəyə gəlirik ki, o, təbii fərqlərə uyğun gəlmir; qrammatikanın ənənəvi olaraq ayrılmış bölmələri o, təbii fərqlərə uyğun gəlmir" (1, s. 185).

Amerika strukturalizminin banilərindən L.Blumfild məşhur "Dil" əsərində göstərir ki, "ingilis dilindəki nitq hissələri sisteminin insanın dilinin universal əlamətlərini əks etdirdiyini güman etmək böyük səhv olardı. Əgər obyektlərin, hərəkətlərin, keyfiyyətlərin ingilis dilindən kənarda klasslar kimi mövcud olduğunu düşünsək, yəni biz fiziki və insan psixologiyasının reallıqları kimi düşünsək, əlbəttə, onda deyə bilərik ki, adıçəkilən nitq hissələrində ifadə olunan keyfiyyətlər bütün dünyada mövcuddur, lakin onu da deməliyik ki, müvafiq nitq hissələri bir çox dillərdə yoxdur" (2, s. 190).

"Nitq hissələri" anlayışı, əslində, sözün daha çox qrammatika mövqeyindən "interpretasiya"sı olsa da, burada leksikanın hesabı, yəni sözün məzmun tərəfi qrammatikanın (morfologiyanın) tələb etdiyi forma tərəfi qədər mühümdür. Ona görə də dil nəzəriyyəsində bir çox hallarda "nitq hissələri" yerinə "leksik- qrammatik söz qrupları" termini işlədilir ki, burada sözün həm semasiologiyası, həm də qrammatik funksiyası ehtiva edilir. Ancaq bu "optimal" və ya daha geniş miqyasda baxış halında da, L.Blumfildin göstərdiyi kimi, heç də müxtəlifsistemli dillərin müvafiq materialını az və ya çox dərəcədə tamlığı ilə əhatə eləmək olmur.

Praqa funksionalistlərinin dilçilik elmi qarşısında bir xidmətləri də ondan ibarət oldu ki, xüsusi "nominasiya" nəzəriyyəsini irəli sürdülər. Bu, ona görə zəruri idi ki, dilə struktur- semantik baxış get- gedə "məna"dan uzaqlaşır, F.de Sösürün sintaqmatik və paradiqmatik (assosiativ) münasibətlər sisteminə aludə olaraq, semiotik səviyyədə yalnız məsələnin sintaktik aspektinə fikir verir, semantikanı isə unudurdular. Halbuki dildə zaman, məkan və hərəkət anlayışlarının ifadəsində nəinki semantika, eləcə də praqmatika öz prinsiplərini diqtə edir.

Funksionalistlər elan etdilər ki, "söz sintaqmatik fəaliyyətlə bəzən qırılmaz şəkildə bağlı olan nominativ linqvistik fəaliyyətin nəticəsidir... Nominativ fəaliyyət vasitəsilə dil fəaliyyəti varlığı (fərqi yoxdur, xarici və ya daxili, real və ya abstrakt olsun) linqvistik olaraq təyin edilən elementlərə üzvləndirir" (6, s. 262- 263).

Əlbəttə, ya leksik, ya da irəlidə görəcəyimiz kimi, qrammatik səviyyədə məkan anlayışının ifadəsi "nominasiya" nəzəriyyəsində yalnız birinci tərəfin (leksikanın) səlahiyyətinə aiddir, ikinci tərəf isə hər nə qədər "mücərrəd" olsa da,

qrammatikanın məkan ifadə etmək imkanından təsəvvür ediləcək qədər məhrum olmadığını göstərir.

Kopenhagen struktur dilçilik məktəbinin banisi L.Yelmslevin məsələyə baxışı qlossematika üçün səciyyəvi olan "sxem- uzus" formulundan keçir. O, "Dil nəzəriyyəsinə giriş"ində ən azından dilçilik üçün məna problemindən imtina etməklə (bax: 7) gələcəkdə "məna"sız dilçilik mənasızdır" sloqanı altında aparılacaq tənqid üçün meydanı daha da genişləndirmiş olur.

Leksik- qrammatik vahidin (sözün) zaman, məkan və hərəkət ifadə etməsinin meyarlarından biri də deyktik formalardır ki, onlar özünü, əslində, əvəzliklərdə göstərir. Əvəzliyin, müəyyən mənada, törəməsi olan zərf ümumi dilçilikdə "semantik əlamətinə görə hal və hərəkətin əlamətini, əlamətin əlamətini və bəzən də əşyanın əlamətini bildirən nitq hissəsi olub" 1) zaman, 2) yer, 3) miqdar, 4) səbəb, 5) tərzi- hərəkət mənalarını əks etdirən sözlər kimi təqdim olunur (8, s. 623- 624).

Əslində, dildə məkan mənalı anlayışların mövcudluğu isim- əvəzlik- zərf (yer zərfi) leksik- qrammatik kateqoriyalarını müqayisəli şəkildə nəzərdən keçirməyi nəinki mümkün, hətta o baxımdan zəruri edir ki, bunlar bir- biri ilə bağlıdır və həmin bağlılığın əsasında obyektiv məkan anlayışı dayanır. Məsələn, müvafiq ifadələr "isim → əvəzlik → zərf" əlaqələrinin aşağıdakı şəkildə nümayiş etdirir: kənd → bu (kənd)→ bura; şəhər → o (şəhər) → ora və s.

Yer zərfləri, əksərən, adla (isimlə) ifadə olunmuş məkan anlayışının xüsusi törəmələridir, ona görə də hər bir yer zərfinin arxasında bir ad (isim) dayanır. Ola bilər ki, bu ad (isim) kifayət qədər üzdə, konkret olsun, ola da bilər ki, dolayısı ilə təsəvvür edilsin. Əlbəttə, heç bir dildə yer zərflərinin sayı çox deyil: bura, ora, irəli, geri, içəri, bayır (eşik), aşağı, yuxarı, bəri, kənar və s. Göründüyü kimi, onların aydın seçilən "antonimliy"i də vardır. Ancaq adlarda (isimlərdə) olduğu kimi əksər əvəzlik və zərflərdə leksik mənadan danışmaq özünü o qədər də doğrultmur. Bununla belə yer zərflərinin məzmunca "yayğınlığ"ı onlara xüsusi semantik- sintaktik səlahiyyət verir, belə ki, əvəzlik kimi zərf də normal leksik- semantik məzmuna malik sözləri əvəzləmək və bu zaman onlara müəyyən sintaktik- üslubu çalar vermək iqtidarındadır.

Məkan mənasının dildə sırf qrammatik ifadəsi də mövcuddur ki, filektiv dillərdə (rus, ingilis və s.) bu özünü önlüklərdə (predloq, preposition), iltisaqi dillərdə isə ismin məkani- qrammatik hallarında (yönlük, yerlik və çıxışlıq) göstərir. Önlüklər hallarla ekvivalentdir; məsələn, Azərbaycan dilində yönlük hala rusca **в, на, k** və ingiliscə **to**; yerlik hala, müvafiq olaraq, **в, на** və **in**; çıxışlıq hala isə **из, с** və **from** önlükləri (rus dilində əsas sözün müəyyən morfoloji dəyişikliyə məruz qalması ilə) uyğun gəlir. İstər flektiv, istərsə də iltisaqi dillərdə hər iki qrammatik formanın (hal şəkilçisi və önlüklərin) məkan mənası yaratmaq funksiyası son dərəcə geniş, rəngarəng və fəaldır. Bununla belə bilavasitə məkan məzmunlu sözlərlə işləndikdə həmin formaların yaratdığı məkanlılıq daha qabarıq (məsələn, **səhrada**,

**sahildən**, **uzaqlara** və s.), bu cür məzmun daşımayan sözlərlə işləndikdə isə zəifdir (məsələn: **ailədə**, **kitabdan**, **mənə** və s.) . Sonuncu qrupa aid sözlərdə "məkanlılıq" şərhi, simvolik olmaqla yanaşı, bilavasitə məkan məzmunu yaratmaq üzrə motivlənmiş qrammatik formanın əlavə imkanlarını nümayiş etdirmək baxımından maraq doğurmaya bilməz.

Məkanı qrammatik halların məkan mənalı sözlərdə olduğu kimi, zaman anlayışı bildirən sözlərdə də işlənməsi dilin "sirlər"indən biri hesab oluna bilər; məsələn: **bir gündə**, **həmin gündən**, **bu günə** və s. Bu cür "paralellik" zamanla məkanın "ortaq mənşə"yindən xəbər verir.

Dildə məkan mənasının ifadəsində onomastik vahidlərin – toponimikanın xüsusi yeri olduğu heç bir şübhə doğurmur. Belə ki, "toponimsiz inkişaf etmiş xalq, millət təsəvvür etmək mümkün deyildir. Yer üzündə adsız, ünvansız dövlət, ölkə, vilayət, şəhər, kənd, dağ, dərə və s. coğrafi obyekt yoxdur. Insan harada məskən salırsa, onun ayağı yerin hansı nöqtəsinə dəyirsə, oraya mütləq ad qoyulur" (4, s. 208). Toponimlərin növlərinin çoxluğu, onun həm dildə mühüm yer tutduğunu, həm də xalqın mədəni təfəkküründə əhəmiyyətli mövqeyə malik olduğunu göstərir; məsələn: oykonimlər (yaşayış məntəqələrinin adları), hidronimlər (su obyektlərinin adları), oronim (dağ, təpə adları) və s. Bunlar da öz növbəsində müxtəlif növlərə ayrılır.

A.Axundov yazır:

"Xüsusi adlar da sözdür. Təbiidir ki, sözlərə aid olan bir sıra xüsusiyyətlər xüsusi adlara da aiddir. Doğrudan da, ümumi sözlər kimi xüsusi adlar da şəkil və məzmunca bir- birindən fərqlənən müəyyən söz qrupları əmələ gətirir. Bu vəziyyət özünü toponimlərdə xüsusən aydın hiss etdirir" (9, s. 182). Məsələn, Xəzər dənizinin müxtəlif dillərdə fərqli adlarının olması (tarixə getdikdə bu fərqlilik daha çox ortaya çıxır), yaxud eyni adın (məsələn, Alpoud, Salahlı, Yenikənd və s.) müxtəlif yerlərə qoyulması və s. toponimlərə münasibətdə müəyyən sərbəstliyin olduğunu deməyə əsas verir, ancaq burada da başlıca təmayül həmin "sinonim" və "omonimlik"dən mümkün qədər qaçmaqdır ki, hər bir yer öz yeganə adı ilə tanınsın.

Məkan anlayışlarının çox böyük bir hissəsi söz birləşmələrində ortaya çıxır. Dilin metaforik imkanları, xalqın ideya estetik təfəkkürü bu cür birləşmələrdə bütöv bir qəlib halına girərək xüsusi formullar təşkil edir; məsələn: qızlar bulağı, qurdlar vadisi, qanlı dərə və s. Onların bilavasitə toponimə - xüsusi adlara çevrilməsi də geniş yayılmışdır; məsələn Ceyrançekməz, Lökbatan, Palantökən, Gələsəngörəsən və s.

Beləliklə, dildə məkan anlayışlarının ifadəsi hər nə qədər obyektiv məkan amilinə dayanmış olsa da, dilin, əslində, ayrı- ayrı dillərin təbiətindən irəli gələn fərqli texnologiyalar daşımaqla bu və ya digər xalqın linqvokulturoloji maraqlarını əks etdirmək baxımından da zəngin material verir.

**Ədəbiyyat**

1.Sössür F.de. Ümumi dilçilik kursu, Bakı, Azərbaycan Tərcümə Mərkəzi, 2018, 356 səh.
2.Blumfil L. Dil, Bakı, tarixsiz, 520 səh.
3.Грамматика общая и рациональная, М., «Прогресс», 1990, 272 стр.
4.Qurbanov A. Ümumi dilçilik, Bakı, Azərbaycan MEA, I cild, 2019, 448 səh.
5.Belyanin V.P. Psixolinqvistika, Bakı, "Elm və təhsil", 2020, 264 səh.
6.Praqa dilçilik dərnəyinin tezisləri. – Ümumi dilçilik müntəxabatı, Bakı, "Elm və təhsil", 2020, səh. 156- 181.
7.Ельмслев Л. Пролегомены к теории языка. – Новое в лигвистике, М., Изд. иностранной литературы, 1960, стр. 264- 389.
8.Adilov M., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik terminləri lüğəti, Bakı, "Elm və təhsil", 2020, 656 səh.
9.Axundov A. Ümumi dilçilik, Bakı, "Şərq- Qərb", 2006, 280 səh.

**Xülasə**

Məlum olduğu kimi, zaman və məkan materiyanın (varlığın) hərəkəti ilə bağlı olaraq fəlsəfənin mühüm məsələləri kimi nəzərdən keçirilir. Ancaq fəlsəfənin məqsədi zaman, məkan və hərəkət anlayışlarını, prinsip etibarilə, obyektiv zəmində öyrənməkdən ibarətdir, dildə isə bu anlayışların inikasının insanın, eləcə də ayrı-ayrı xalqların şüur, təfəkkür özünəməxsusluqlarından irəli gələn müəyyən subyektiv "çalarlar"ı mövcuddur ki, bunu hətta XVII-XVIII əsrlərin universal qrammatikaları da qeyd etmişdir. Məkan hərəkətdə olan materiyanın mövcudluğunun obyektiv real formasıdır. Məkan anlayışı obyekt və predmetlərin yanaşı mövcudluğunu, bir-birindən aralı olmasını, onların bir-birinə nisbətən yerləşməsini ifadə edir.Məkan anlayışı dar mənasından başqa, geniş mənasında da işlədilir. Mənaca məkan təkcə obyektiv-real, yəni maddi olanı deyil, şüur hadisələrini də əhatə edir, çünki onların hər ikisi mövcuddur. Deməli, məkana maddi, obyektiv reallıq da daxildir, yəni maddi reallıqla yanaşı, o, ən coşqun fantaziya, nağıl əsatirlərin məhsulları mənəvi məkan kimi mövcud ola bilər.Dildə məkan məzmununu morfoloji üsulla yaradan vasitələr vardır. Məqalədə məkan anlayışı ifadə edən sözlərin daşıdığı məna çalarları müxtəlif yollarla izah edilmişdir.Araşdırma nəticəsində məlum olmuşdur ki, məkan məzmunu anlayışı bir neçə dilçilik məktəbləri tərəfindən müxtəlif cür qəbul edilmişdir.

**ABDULLAYEVA AYSEL**

**Summary**

**TECHNOLOGIES OF EXPRESSION OF SPATIAL CONCEPT IN LANGUAGE**

As is known, time and space are considered important issues of philosophy in connection with the movement of matter (being). However, the goal of philosophy is to study the concepts of time, space and movement, as a matter of principle, on an objective basis, and in language there are certain subjective "shades" of the understanding of these concepts arising from the consciousness and thinking peculiarities of a person, as well as individual nations, which can be seen even in the XVII- Universal grammars of the 18th century also noted. Space is the objectively real form of existence of matter in motion. The concept of space means the co-existence of objects and subjects, their distance from each other, and their location relative to each other. The concept of space is used in a broad sense, in addition to its narrow meaning. Meaning space includes not only the objective-real, that is, the material, but also the phenomena of consciousness, because they both exist. Therefore, the space includes the material, objective reality, that is, along with the material reality, it can exist as a spiritual space, the products of the most exuberant fantasy, fairy tales. Language has tools that create the spatial content in a morphological way. In the article, the shades of meaning of the words expressing the concept of space are explained in different ways. As a result of the research, it was found that the concept of spatial content was accepted in different ways by several schools of linguistics.

**АБДУЛЛАЕВА АЙСЕЛЬ**

**РЕЗЮМЕ**

**ТЕХНОЛОГИИ ВЫРАЖЕНИЯ ПРОСТРАНСТВЕННОГО ПОНЯТИЯ В ЯЗЫКЕ**

Как известно, время и пространство считаются важными вопросами философии в связи с движением материи (бытия). Однако целью философии является изучение понятий времени, пространства и движения в принципе на объективной основе, а в языке существуют определенные субъективные «оттенки» понимания этих понятий, возникающие из сознания и Отмечены также особенности мышления человека, а также отдельных народов, которые можно увидеть еще в XVII-Универсальных грамматиках XVIII века. Пространство есть объективно реальная форма существования материи в движении. Понятие пространства означает сосуществование объектов и предметов, их расстояние друг от друга и расположение относительно друг друга.Понятие пространства употребляется в широком смысле, помимо узкого

значения. Смысловое пространство включает в себя не только предметно-реальное, то есть материальное, но и явления сознания, ибо они оба существуют. Следовательно, пространство включает в себя материальную, объективную реальность, то есть наряду с материальной реальностью оно может существовать как духовное пространство, продукты самой буйной фантазии, сказки.Язык располагает средствами, создающими пространственное содержание в морфологическом способ. В статье по-разному объясняются оттенки значения слов, выражающих понятие пространства.В результате исследования установлено, что понятие пространственного содержания по-разному воспринималось несколькими школами языкознания.

**Rəyçi: fil.f.d.,prof.Nizami Qulu oğlu Cəfərov**